# MAKEDONİYALI İSGƏNDƏRİN BUYNUZLU TƏSƏVVÜRÜNÜN SİRLƏRİ

## *Tarixin sirlərini dilçilik elmi açır*

Bu gün Makedoniyalı İsgəndər haqqında istənilən qədər tarixi məlumatları əldə etmək mümkündür.(Maraqlıdır orfoqrafiya lüğətində ərəb mənşəli olan İskəndər və Əskər şəxs adlarını İsgəndər və Əsgər kimi yazılı forması verilmişdir.Əslində ərəb dilində nə "g" səsi, nə də hərfi yoxdur.)

Makedoniyalı İsgəndərin (e.ə.356 – e.ə.323) dövrü tarix üçün o qədər də qədim dövr hesab olunmur.İsgəndərin həyatı, nəcabəti, zəfər yürüşləri haqqında onun müasirlərinin, tarixçilərin real faktları yazılı mənbələrdə öz əksini tapmışdır.

Tarixi reallıqlarla yanaşı, onun haqqında xalqlar arasında əfsanələr də yayılmışdır.İsgəndərin adına kəsilən qızıl pullarda onun buynuzlu əksinin təsviri zərb edilmişdir.

İsgəndərin buynuzlu təsvirinin səbəbi nə idi?

İskəndərin atası II Filip ona Yunanıstanın görkəmli filosofu və natiqi Aristotelin məktəbində təhsil verdirmişdi.Həmin dövrdə yunan filosoflarının dünyagörüşündə materialist fikirlər idealist fikirləri üstələyirdi və yeni mifologiya yaratmağa ehtiyac yox idi.Ellinizm realizmin ilk məktəbi sayılır.

İsgəndərin döyüş səhifələrini izləsək görərik ki, Böyük Fateh Makedoniyalı İsgəndər e.ə. 334-cü ildə Anatoliyanı (Anadolu-şərq) idarə edən Əhmənilər imperiyasını fəth etdi.Qavqamel döyüşündə İranın gücünü məhv etdi.III Daranı hakimiyyətdən saldı.

332-ci ildə İsgəndər Misirin fəthini başa çatdırdı.Burada onu xilaskar kimi qiymətləndirirdilər.O, Liviya səhrasında Siva vahəsinin orakulunda "yeni kainatın sahibi və Tanrı Amonun oğlu" elan edildi.

Buna səbəb nə idi?

Firon Sülaləsini məğlub edən Dara sülaləsi Ərəbstan yarımadasını tam istila etmişdi.O yerli xalqa həddindən artıq zülm edirdi.Yerli xalq o qədər zinhara gəlmişdi ki, and içmişdilər ki, kim onları Daranın zülmündən xilas etsə ona Tanrı kimi səcdə edəcəklər.(Çox yəqin ki, "dar ağacı" nominasiyası da Daranın cəza üsulundan psixolinqvistik yaranmadır.)Məhz bu səbəbdən də İsgəndərin qələbəsindən sonra Ərəbstan yarımadasının mərkəzi olan Babildə yerli xalq onu Tanrı Amonun oğlu elan etdilər.Onlar Tanrıçılığın atributu kimi onu "buynuzlu" hesab etməyə başladılar.

Quranın "Kəhv" surəsində Zülqərneyn (İsgəndər) ərəblərə Yəsus və Məcus xalqlarından qorunmaq üçün sədd tikən qəhrəman kimi verilmişdir.Quranın təsvirçiləri ərəb dilində "Zülqərneyn" adının "buynuzlu adam" kimi mənalandığını qeyd edirlər.Məhz buna görə də onun İsgəndər Zülqərneyn olduğunu təsdiq edirlər.

Həqiqətən də ərəb dilində "zül" – sahib; "ğərn" – buynuz; "eyn" – cüt, qoşa mənasındadırYəni Zülqərneyn – "İki buynuzun sahibi" mənasənı bildirir.

Dilçiliyin əsas prinsipi olan müqayisəli dilçilik təhlili ilə iatın dilində işlənən Makedoniyalı İsgəndər adına diqqət versək, Makedoniya sözü ilə Zülqərneyn sözünün mənası eyni paralelliyə gələcəkdir. Latın dilində "mace" – "gürz-buynuz"; "do" – "iki, qoşa"; "iya" – "sahib".Bütövlükdə "İki buynuzun sahibi" mənasına gəlir.

Eyni zamanda şərq nağıllarında olan "İsgəndərin buynuzu var buynuzu"da eyni məxəzdən yaranmadır.

**P.S.** Maraqlıdır ki, Yunanıstanla Makedoniya Respublikası arasında uzun zaman gedən ad mübahisəsi 2019 – cu ildə Makedoniyanın adının Şimali Makedoniya adlanmasına gətirib çıxardı.Mübahisənin səbəbi Makedoniyalı İskəndərin yunan olması, lakin onun adını Makedoniya Respublikasının daşıması qısqanclığı idi.

Yəqin ki, bu xalqlarn dilçi alimləri (bizimkiləri demirəm) Makedoniya adının toponim yox, antroponim olduğunu bilsəydilər bu qədər əziyyət çəkməzdilər...

**Təşəkkür edirəm.**

***Həsən ƏLİYEV***